

# İŞ YERLƏRİ VƏ İCTİMAİ ƏRAZİLƏRİN TÜTÜN TÜSTÜSÜNDƏN AZAD EDİLMƏSİNƏ DAİR

# TƏLİMAT

Bakı, 2018

Bu sənəd Vərəm və Ağciyər Xəstəliklərinə qarşı Beynəlxalq İttifaq (The Union) tərəfindən ayırılmış vəsait hesabına həyata keçirilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) “Azərbaycanda multisektoral tütünlə mübarizə mexanizmlərinin təkmilləşdirilməsi” layihəsi çərçivəsində 2018-ci ildə hazırlanmışdır. Sənədin məzmununa görə müəlliflər məsuliyyət daşıyırlar. Məzmun heç bir halda The Union və ya donorların mövqeyini əks etdirmir.

# MÜNDƏRİCAT

Giriş ........................................................................................ 3

Ümumi məlumatlar ........................................................................ 5

Hüquq və vəzifələr ........................................................................ 7

Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması
haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ...................... 9

Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair tələblər .................. 12

Tütün məmulatları tullantıları .......................................................... 16

İstinad edilmiş mənbələr ................................................................. 19

# Giriş

Tütün dünyada qarşısı alına bilinən əsas ölüm səbəblərindən biridir. Tütünçəkmə ürək xəstəlikləri və insult, ağciyər xərçəngi və xroniki obstruktiv ağciyər xəstəliyi kimi əsas qeyri-infeksion xəstəliklər yaradır. Bu gün tütün dünyada böyüklər arasında on nəfərdən birinin ölümünə səbəb olur və səkkiz aparıcı ölüm səbəbinin altısı üçün risk amilidir. Tütün epidemiyası artıq səhiyyə problemi çərçivəsindən çıxaraq törətdiyi təhlükələrə görə qlobal miqyas almışdır.

Bunu nəzərə alaraq, dünya ölkələrinin 2003-cü ildə imzaladıqları Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyasına Azərbaycan da 2005-ci ildə qoşuldu. Bu Konvensiya tütün istehlakı nəticəsində ölüm hallarının azaldılmasına yönəldilən və bütün dünyada tütün epidemiyasına qarşı qlobal mübarizədə ilk beynəlxalq saziş oldu. Çərçivə Konvensiyasının Tərəfləri tütün epidemiyasına qarşı mübarizəyə qoşularaq öz əhalisinin sağlamlığının qorunmasını öhdələrinə götürmüşlər.

Hesablamalara görə, tütün tüstüsünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 7 milyondan çox insan vəfat edir. Bunların 10%-i özü tütün çəkmir, lakin ətrafa yayılan tütün tüstüsü ilə nəfəs almaqla yaranan ağır xəstəliklərdən dünyasını dəyişir. Əfsuslar ki, 20-ci əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyub. İndiki tendensiyanın qalacağı halda 21-ci əsrdə tütündən 1 milyard insanın vəfat etməsi gözlənilir. Sübut edilmişdir ki, tütün tüstüsünün tərkibində 7000-ə qədər kimyəvi maddə mövcuddur, bunlardan 250-si xüsusi təhlükəli kimyavi birləşmələr və 70-i kanserogen, yəni xərçəng xəstəliyi yaradan maddə hesab edilir.

Passiv tütünçəkmə tütün tüstüsü ilə çirklənmiş hava ilə nəfəs almaqdır. Yandırılmış siqaret əsas tüstü axını ilə yanaşı, ətrafa təsir edən yan tüstü axını mənbəyidir. Bəzi maddələr yan tüstü axınında daha çox olur. Hazırda sübut edilmişdir ki, passiv tütün çəkmə ağciyər xərçənginin əmələ gəlməsinin əsas risk amillərindəndir və ürək-damar xəstəliklərinin inkişafına səbəb ola bilər.

Az siqaret çəkmək o demək deyil ki, sağlamlığa zərər vurulmur. Bəzən insanlar tütünü başqa üsullarla çəkirlər, məsələn, qəlyan çəkməyə üstünlük verirlər.

Geniş yayılmış və yanlış düşüncədir ki, qəlyan ən təhlükəsiz tütünçəkmə üsuludur. Adi siqaretə nisbətən, qəlyan çəkdikdə insan orqanizmi daha çox kanserogen maddə qəbul edir və onun qanında dəm qazı 4 dəfə çox olur. Qəlyan tüstüsündə zərərli, o cümlədən kanserogen maddələrin olması siqaret çəkən insanlardakı xəstəliklərin yaranmasına səbəb olur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, 1 saat qəlyan çəkmək 100 siqaretin çəkilməsinə bərabər tutulur.

Bəzi adamlar mentollu, nanəli və digər yanlış olaraq “yüngül” adlandırılan siqaret çəkirlər. Ekspertlər hesab edirlər ki, belə siqaretin zərəri əlavə tam verən təhlükəli maddələr qatıldığına görə adi siqaretdən də çoxdur. Eyni zamanda, sərinləşdirici təsirə malik olduğu üçün insanlar tüstünü ağciyərlərdə daha çox saxlayırlar. Bu isə daha da təhlükəlidir.

Elektron siqaret yalnız zərərsiz su buxarını yox, həm də nikotin, mikrohissəciklər və xərçəngə səbəb ola bilən toksin tərkibli aerozolu əmələ gətirərək ətrafa yayır. Beləliklə, elektron siqaret ətraf mühiti çirkləndirən yeni mənbədir və həm çəkən şəxs üçün, həm də ətrafdakı insanlar üçün potensial risk mənbəyi yarada bilər. Son illər Avropa ölkələrində tütünçəkməyə qarşı rəsmi səviyyədə sərt tədbirlər görülür. Bu tədbirlər əhalinin passiv tütün çəkmədən xilas olunmasına və insanların tütünçəkmədən imtina etməsinə yönəldilib. Bir sıra ölkələr hətta tam tütündən azad ölkəyə çevrilmək istəyini bildirib. Azərbaycanda da tütünçəkmənin məhdudlaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi davam edir və son zamanlar bu sahədə ciddi addımlar atılıb. 1 dekabr 2017-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu insan sağlamlığına göstərilən qayğının təzahürü kimi qiymətləndirilməlidir.

Bu Təlimat Azərbaycan Respublikasının tütünlə əlaqəli qanunvericiliyinə daha məqsədyönlü riayət olunması üçün dövlət və özəl sektorlarının rəhbər işçilərinin, o cümlədən qərar qəbul edən şəxslərin, aidiyyəti dövlət və ictimai təşkilatlar və fəalların, ictimai səhiyyə mütəxəssislərinin, digər təşkilat və fərdlərin fəaliyyətlərində nəzərə alına bilər.

Təlimatın başlıca məqsədi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən epidemiya elan edilmiş və müasir dövrdə əhalinin sağlamlığının qorunması sahəsində təhlükəli problemə çevrilmiş tütünə qarşı mübarizədə dövlət və özəl təşkilatların, ayrı-ayrı vətəndaşların, bütövlükdə Azərbaycan cəmiyyətinin səylərinin birləşdirilməsinə nail olmaqdır.

Tütün tüstüsü qapalı və ictimai yerlərdə, istər dövlət, istərsə də özəl müəssisələrdə çalışan əməkdaşların və həmin müəssisələrə gələn şəxslərin, o cümlədən yaxın və doğmalarımızın sağlamlığına zərərli təsir göstərə bilər. Lakin bu təhlükələrin qarşısının alınması üçün ölkəmizin tütünlə əlaqəli qanunvericiliyinə tam və qeyd-şərtsiz riayət edilməli, bu işin təşkilinə məsuliyyətlə yanaşılmalıdır.

Təlimatda əks olunan məlumatlar “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununa və ondan irəli gələr digər müvafiq qanunvericilik aktlarına əsaslanır.

# Ümumi məlumatlar

***Tütün məmulatına nələr aiddir?***

Tütün məmulatı – tütün yarpağından və onun komponentlərindən hazırlanmış, tərkibində nikotin, aktiv alkoloid, o cümlədən kanserogen maddələr olan və nikotinə aludəçilik yaradan məhsul (siqaretlər, papiroslar, siqarlar, siqarillalar, çubuq tütünü və s.). Bütün növ qəlyanlar və elektron siqaretlər də "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tütün məmulatlarına bərabər tutulur.

***Tütünçəkmə nədir?***

Tütünçəkmə – tütün məmulatlarının tüstüsünün tənəffüs yolları vasitəsi ilə insan orqanizminə daxil olması nəticəsində tütün çəkənin nikotindən asılılıq vəziyyətinin yaranmasına, onun və ətrafdakı şəxslərin sağlamlığına zərər vurulmasına və ətraf mühitin çirklənməsinə səbəb olan istifadə prosesidir.

***Tütündən istifadə deyəndə nə nəzərdə tutulur?***

Tütünçəkmə, habelə tütünün qızması nəticəsində meydana gələn tüstü və ya buxarın tənəffüs yolu ilə orqanizmə qəbul edilməsidir.

***Ətraf mühitdəki tütün tüstüsü dedikdə nə başa düşülür?***

Tütün çəkmənin həyata keçirildiyi və ya daha əvvəl həyata keçirilmiş olduğu yerin atmosfer havasında olan, o cümlədən tütün çəkməni həyata keçirən şəxs tərəfindən nəfəslə buraxılan tütün tüstüsü nəzərdə tutulur.

***Tütün məmulatlarının tullantılarına nə aiddir?***

Tütün məmulatlarının tullantıları qanunvericiliyin müddəalarına müvafiq olaraq kənarlaşdırılan, kənarlaşdırılma üçün nəzərdə tutulan, kənarlaşdırılmalı olan tütün məmulatları və onların qalıqları, tütün məmulatlarının xammal, material, maddə, yarımfabrikatları və onların qalıqları aiddir

***Tütündən istifadə hansı nəticələrə səbəb ola bilər?***

Tütün istifadəsi və ətraf mühitdəki tütün tüstüsünün təsiri insanın həyatına və ya sağlamlığına, onun yaşadığı mühitə ziyan vura, habelə bununla əlaqədar tibbi, demoqrafik, sosial-iqtisadi nəticələrə səbəb ola bilər.

**Tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləri**

- Vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin nəticələrindən qorunması sahəsində hüquqlarına riayət edilməsi

- Ətraf mühitdəki tütün tüstüsünün təsiri və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin, əlilliyin, vaxtından əvvəl ölüm hallarının qarşısının alınması

- Tütündən istifadənin nəticələrindən qorunma hüquqlarının təmin edilməsi üçün dövlətin və bələdiyyələrin, fərdi sahibkarların, hüquqi şəxslərin və digər qurumların məsuliyyəti

- Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi zamanı sistemli yanaşma, bu tədbirlərin həyata keçirilməsinin fasiləsizliyi və ardıcıllığı

- Həyat və sağlamlığın qorunmasının tütün istehsalçılarının mənafelərindən üstünlüyü

- Dövlətin, bələdiyyələrin, vətəndaşların, tütün təşkilatları ilə əlaqədar olmayan fərdi sahibkarların, hüquqi şəxslərin və qanunvericiliyə uyğun olaraq yaradılmış digər qurumların qarşılıqlı fəaliyyəti

- Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin aşkarlığı və səmərəliliyinin müstəqil qiymətləndirilməsi

- Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin məlumatlandırılması.

***Tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlətin vəzifələrinə nə aiddir?***

- Dövlət siyasətinin həyata keçirilməsi

- Sağlamlığın qorunması sahəsində qanunvericiliyə uyğun olaraq tibb müəssisələrində vətəndaşlara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə tütündən istifadənin dayandırılmasına, tütün asılılığı və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəldilmiş tibbi yardım göstərilməsinin təşkilinin təmin edilməsi

- Dövlət nəzarətinin təşkili və həyata keçirilməsi

- Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin monitorinqinin keçirilməsi, həmçinin Azərbaycan Respublikasının ərazisində tütündən istifadənin miqyasını müəyyənləşdirmək və istifadənin azaldılmasına nail olmaq məqsədi ilə həyata keçirilən və (və ya) planlaşdırılan tədbirlər haqqında əhalinin məlumatlandırılması aiddir.

***Tütündən istifadənin nəticələrindən qorunma sahəsində bələdiyyələrin vəzifələrinə nə aiddir?***

- Bələdiyyə ərazilərində vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən qorunmasına xidmət edən tədbirlərin həyata keçirilməsi və belə tədbirlərdə iştirak

- Bələdiyyə ərazisində tütündən istifadənin miqyasını müəyyənləşdirmək və istifadənin azaldılmasına nail olmaq məqsədi ilə həyata keçirilən və (və ya) planlaşdırılan tədbirlər haqqında əhalinin məlumatlandırılması

- Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin nəticələrinin azaldılmasına yönəlmiş tədbirlərin monitorinqinin həyata keçirilməsi.

***Tütündən istifadənin nəticələrindən qorunma sahəsində fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinə nə aiddir?***

- Tüstüsüz ətraf mühitdə həyat fəaliyyəti üçün əlverişli şərait və sağlamlığın ətraf mühitdəki tütün tüstüsünün təsirindən qorunmasını müvafiq dövlət və bələdiyyə orqanlarından tələb etmək

- Tütündən istifadənin dayandırılmasına və tütündən asılılığın müalicəsinə yönəlmiş tibbi yardım almaq

- Dövlət və bələdiyyə orqanlarından, fərdi sahibkarlardan, hüquqi şəxslərdən və digər qurumlardan ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlər haqqında məlumat almaq

- Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə ictimai nəzarətdə iştirak etmək

- Tütündən istifadənin nəticələrindən qorunmanın təmin edilməsi barədə dövlət və bələdiyyə orqanlarına, habelə digər şəxslərə təkliflər təqdim etmək

- Qanunvericiliyin digər şəxslər tərəfindən pozulması nəticəsində həyat və sağlamlıqlarına, əmlaklarına vurulmuş ziyanın ödənilməsini tələb etmək

***Tütündən istifadənin nəticələrindən qorunma sahəsində vətəndaşların vəzifələrinə nə aiddir?***

- Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında qanunvericiliyin tələblərinə riayət etmək

- Uşaqlarda və gənclərdə tütün istifadəsinə mənfi münasibət formalaşmasının, habelə onların tütün istifadəsi prosesinə cəlb edilməsinin yolverilməzliyinin qeydinə qalmaq

- Başqa şəxslərin tüstüsüz ətraf mühitdə həyat fəaliyyəti üçün əlverişli şərait və sağlamlığın ətraf mühitdəki tütün tüstüsünün təsirindən qorunması hüquqlarının pozulması ilə nəticələnən hərəkətlər etməmək

# Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Əhalinin sağlamlığının qorunması haqqında", "Tütün və tütün məmulatları haqqında" Azərbaycan Respublikasının qanunlarından, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər normativ hüquqi aktlardan ibarətdir.

***Ətraf mühitdəki tütün tüstüsünün təsirinin və tütün istifadəsi ilə bağlı xəstəliklərin yaranmasının qarşısının alınması və tütündən istifadənin azaldılması məqsədilə hansı tədbirlər həyata keçirilir?***

- Ayrı-ayrı ərazilərdə, binalarda və obyektlərdə tütün çəkilməsinə qadağa qoyulması və həmin qadağanın pozulmasına görə məsuliyyətə cəlb edilməsi

- Tütün məmulatlarına tələbatın azaldılmasına yönəlmiş qiymət, vergi və (və ya) rüsum tədbirləri

- Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması

- Tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi

- Fiziki şəxslərə tütündən istifadənin dayandırılmasına, tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəldilmiş tibbi və psixoloji yardımın göstərilməsi

- Tütün məmulatlarının qeyri-qanuni dövriyyəsinin qarşısının alınması

- Tütün məmulatlarının dövriyyəsinin məhdudlaşdırılması

- Tütün məmulatları tullantılarının ətraf mühitə atılması qadağandır. Onların utilizasiyası qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*Tütün çəkilməsinə icazə verilməyən yerlər hansılardır?*

Azərbaycan Respublikasında tütündən istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədi ilə aşağıda göstərilən yerlərdə tütün çəkilməsi qadağandır:

1. Təhsil və tərbiyə müəssisələrində, habelə onların ərazilərində

2. Səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, habelə onların ərazilərində

3. İdman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində

4. Restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektlərində

5. Ticarət obyektlərində

6. Məişət obyektlərində

7. Sosial xidmət müəssisələrində

8. Yerləşdirmə vasitələrində

9. Teatr və kinoteatrlarda, sirk binalarında, sərgi və nümayiş salonlarında, oxu zallarında, kitabxanalarda, muzeylərdə, habelə digər mədəniyyət obyektlərində

10. Uşaq meydançalarında

11. Yerüstü qapalı və yeraltı piyada keçidlərində

12. Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində

13. Metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda

14. Hava nəqliyyatı vasitələrində, dəmiryolu qatarlarında, su nəqliyyatı vasitələrində

15. Hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmiryolu vağzallarında, avtovağzallarda (avtostansiyalarda) və avtobusların dayanacaq məntəqələrində

16. Liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində

17. Taksafonlarda

18. Yanacaqdoldurma məntəqələrində, o cümlədən tezalışan maddələrin saxlandığı bina və müəssisələrdə, habelə bu maddələrin daşındığı nəqliyyat vasitələrində

19. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq digər müəssisə, idarə və təşkilatlarda, iş yerlərində

**Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilat rəhbərləri yuxarıda göstərilən yerlərdə hər kəsin yaxşı görə biləcəyi lövhələrdə "Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.**

3, 4, 5, 8, 14-cü (su və dəmiryolu nəqliyyatında), 15 və 19-cu bəndlərdə göstərilən yerlərdə tütün çəkmək üçün havalandırma sistemi ilə təmin olunan və ya açıq havada olan xüsusi yerlər təşkil edilə bilər.

***Tütün çəkmək üçün xüsusi ayrılmış yer dedikdə nə başa düşülür?***

Xüsusi ayrılmış yer – mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda, iş yerlərində, yerləşdirmə vasitələrində, habelə ictimai iaşə müəssisələrində işəgötürənin və ya mülkiyyətçinin həmin müəssisələrin Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tütün çəkilməsinə icazə verdiyi açıq və ya qapalı ərazi nəzərdə tutulur.

Lakin tütün çəkmək üçün xüsusi ayrılmış yerin təşkil edilməsi məsul şəxs tərəfindən nəzərdə tutulduqda həmin yer Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 127 №-li, 3 aprel 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"ə tam və qeyd-şərtsiz cavab verməlidir.

# Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair tələblər

| | |
|---|---|
| **Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlər aşağıdakı tələblərə cavab verməlidir:** | |
| **1** | Xüsusi qapalı yerlər bina daxilində insanların ümumi gediş-gəliş yerlərindən, kütləvi toplanma, istirahət və gözləmə sahələrindən kənarda yerləşdirilməlidir |
| **2** | Xüsusi qapalı yerlər bütün tütün çəkilməyən yerlərdən tam təcrid edilməli, girişi və çıxışı bir qapıdan ibarət olmalıdır |
| **3** | Xüsusi qapalı yerlərin tikintisində və quraşdırılmasında istifadə olunan materiallar yanğınadavamlı, içəridən və bayırdan üst səthləri asan yuyulan və təmizlənən, yuyucu və dezinfeksiyaedici vasitələrin təsirinə davamlı olmalıdır |
| **4** | Xüsusi qapalı yerlər özü açılan və bağlanan avtomatik və ya özü bağlanan qapılarla təchiz olunmalıdır |
| **5** | Xüsusi qapalı yerlərin daxilində görünən yerlərdə tütün əleyhinə, tütün çəkmənin zərərlərinə dair çap və digər maarifləndirici materiallar yerləşdirilməlidir |
| **6** | Xüsusi qapalı yerlərin girişində "Tütün çəkmək üçün xüsusi ayrılmış yer" və "Tütün çəkmək səhhətiniz üçün zərərlidir" və "18 yaşadək şəxslərin girişi qadağandır" yazılarının, yaxud işarələrinin olması təmin edilməlidir |
| **7** | Xüsusi qapalı yerlərdə təhlükəsizlik tələbləri təmin edilməli və yanğınsöndürmə qurğuları quraşdırılmalıdır |
| **8** | Xüsusi qapalı yerlərdə siqaret kötükləri və ya onun hər hansı bir hissəsi, eləcə də digər tütün məmulatları tullantılarının toplanması məqsədi ilə metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir |
| **9** | Xüsusi qapalı yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir |
| **10** | Tütün məmulatları üçün nəzərdə tutulmuş külqabılar və bu məqsədlə istifadə edilə biləcək digər tullantı qabları mütəmadi olaraq qapalı tutumlara boşaldılaraq, tütünçəkmə qadağan edilən yerlərdən, sahələrdən kənarlaşdırılmaqla, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlərə atılmalıdır |
| **11** | Xüsusi ayrılmış qapalı yerlər havalandırma sistemi ilə təchiz edilməlidir. |

| Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlərin havalandırma sistemi aşağıdakı tələblərə uyğun olmalıdır: | |
|---|---|
| 1 | Xüsusi qapalı yerlər tütün çəkmək qadağan olunan yerlərə nisbətən mənfi hava təzyiqi altında saxlanılmalıdır. Mənfi hava təzyiqi yaratmaq üçün mexaniki sistem bütün iş saatlarında işləməlidir |
| 2 | Xüsusi qapalı yerlərdən mexaniki havalandırma sistemi ilə xaric olan hava tütün çəkilməyən digər sahələrin havalandırma və kondisioner sistemlərinin havası ilə qarışmamalıdır |
| 3 | Mexaniki havalandırma sistemi xüsusi qapalı yerin havasının bir saat ərzində azı 10 dəfə dəyişməsini təmin etməlidir |
| 4 | Mexaniki sistem vasitəsilə xüsusi qapalı yerlərdən çıxarılan hava binanın girişindən və ya çıxışından, pəncərələrdən, 4 havalandırma sistemlərinə təmiz hava daxil olan yerlərdən, tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı tələblərinə uyğun olaraq damörtüyü səviyyəsinə qədər uzaqlaşdırılmalıdır. |

| Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlər aşağıdakı tələblərə cavab verməlidir: | |
|---|---|
| 1 | Tütün çəkmək üçün xüsusi açıq yerlər binaların giriş və çıxışlarından, ümumi gediş-gəliş yerlərindən kənarda yerləşdirilməlidir |
| 2 | Xüsusi açıq yerlərdə "Tütün çəkmək üçün xüsusi ayrılmış yer" yazısının olması təmin edilməlidir |
| 3 | Xüsusi açıq yerlər ərazisində siqaret kötükləri və ya onun hər hansı bir hissəsi, eləcə də digər tütün məmulatlarının tullantıları üçün metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir |
| 4 | Siqaret kötüklərini və ya onun hər hansı bir hissəsini, eləcə də digər tütün məmulatlarının tullantılarını nəzərdə tutulmuş yerdən kənara atmaq qadağandır |
| 5 | Xüsusi açıq yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir. |

***Tütün məmulatlarının satışında istifadəçilərin həvəsləndirilməsi üçün hansı üsullar qadağandır?***

- Tütün məmulatlarının və onların yeni nümunələrinin pulsuz paylanması və ya mükafat kimi verilməsi

- Tütün məmulatlarının lotereya, müsabiqə, idman yarışları, oyunlar üçün mükafat kimi təklif edilməsi

- Tütün məmulatlarının satışı və istifadəsi ilə bağlı uduşlu (o cümlədən siqaret qutularının və hissələrinin yığılması ilə) oyunların, o cümlədən stimullaşdırıcı lotereyaların keçirilməsi

- Tütün istehsalı və satışı ilə məşğul olan şəxslər tərəfindən istehsal edilən və ya satışa çıxarılan tütün məmulatlarının istehlakçılara hədiyyə və ya yardım kimi paylanmasına yol verilmir.

***Tütün məmulatlarının reklamı və satışının stimullaşdırılması qadağandırmı?***

- Tütün məmulatına tələbatın azaldılması məqsədi ilə tütün məmulatlarının satışının və onlardan istifadənin reklamı və stimullaşdırılması ilə bağlı aşağıdakılar qadağan edilir:

- Tütün məmulatlarının əhali arasında pulsuz, o cümlədən hədiyyələr şəklində yayılması

- Tütün məmulatlarını alanlara hədiyyə qismində başqa əmtəənin təklif edilməsi

- Tütün məmulatlarının qiymətlərinə hər hansı üsullarla, habelə kuponlar və talonlar nəşr edilməsi yolu ilə güzəştlər tətbiq olunması

- Televiziya və videofilmlərdə, teatr tamaşalarında, radio, televiziya, video və kinoxronika proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsi ilə açıq yayımlanması

- Tütün məmulatlarının mükafat qismində verilməsi şərti ilə əmtəə satışını stimullaşdıran müxtəlif tədbirlərin (o cümlədən lotereyaların, müsabiqələrin, oyunların) təşkili və keçirilməsi

- Tütün və tütün məmulatlarının istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməz

- Tütünün və tütün məmulatlarının, habelə tütün çəkmə ləvazimatlarının reklamı qadağandır.

***Yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışına icazə verilirmi?***

- Yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışı və ya satış məqsədi olmadan verilməsi, habelə onların tütündən istifadə prosesinə cəlb edilməsi qadağandır.

- Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir. Alıcının yetkinlik yaşına çatmasına şübhə olduqda, onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd təqdim edilmirsə, satıcı tütün məmulatını alıcıya satmaqdan imtina edir.

- Yetkinlik yaşına çatmayan şəxslərin tütündən istifadəsinə icazə verilmir.

**Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydalarına görə:**

- Tütün məmulatlarının satışını həyata keçirən ticarət (xidmət) obyektlərinin giriş hissəsində tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasının qadağan edildiyini əks etdirən elan yerləşdirilməlidir.

# Tütün məmulatları tullantıları

**Tütün məmulatları tullantılarının ətraf mühitə atılması qadağandır**

Utilizasiyaya yararsız olan tütün məmulatlarının tullantıları ətraf mühitə zərərli təsirin qarşısını almaq şərtilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"na uyğun kənarlaşdırılır və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin icazəsi əsasında xüsusi ayrılmış ərazilərdə (poliqonlarda) basdırılır.

Yandırılma üsulu ilə utilizasiya edilmiş tullantıların qalıqları ətraf mühitə zərərli təsirin qarşısını almaq məqsədi ilə ekoloji qanunvericiliyə uyğun olaraq, xüsusi ayrılmış yerlərdə təcrid edilir (basdırılır).

***Tütün məmulatları tullantılarının utilizasiyası ilə bağlı xərclərin ödənilməsi kim tərəfindən aparılır?***

- Tütün məmulatları tullantılarının təcrid edilməsi utilizasiyası ilə bağlı xərclər həmin tütün məmulatları tullantılarının sahibi (mülkiyyətçisi) tərəfindən ödənilir.

- Tütün məmulatları tullantılarının onların utilizasiyasına qədər yığılması (toplanması), daşınması, müvəqqəti saxlanması ilə bağlı xərclər "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə və yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən utilizasiyaya yararlı tütün məmulatlarının tədqiqinin (sınağının) aparılması və onun nəticələrinə uyğun olaraq məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilməklə dövriyyədən götürülməsi, daşınması və saxlanması ilə bağlı xərclər isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli qərarı ilə təsdiq edilmiş "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"na uyğun olaraq müəyyən olunur.

***Tütünlə əlaqəli qanunvericiliyin pozulmasına görə İnzibati Xətalar Məcəlləsində hansı cərimələr nəzərdə tutulmuşdur?***

**Maddə 212. Tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi**

**212.1.** Bu Məcəllənin **299, 305, 306.4, 318 və 322.0.4-cü** maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə siqaret çəkməyə görə - 30 manat məbləğində cərimə edilir.

**212.2.** Müəssisələrdə, idarələrdə, təşkilatlarda siqaret çəkmək üçün xüsusi yerlərin ayrılmasının və görünən yerlərdə "Siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə - vəzifəli şəxslər 400 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimə edilir.

**Maddə 299. Hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkmə**

Hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkməyə görə - 100 manat məbləğində cərimə edilir.

**Maddə 305. Dəmiryolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkmə**

Dəmiryolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkməyə görə - 40 manat məbləğində cərimə edilir.

**Maddə 306. Metropolitendən istifadə qaydalarının pozulması**

**306.4.** Eskalatorun sürahisini çıxarmağa, zərurət olmadan "Stop" açarından istifadə etməyə, stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda siqaret çəkməyə, qatarın hərəkəti zamanı vaqonun qapılarını açmağa, qatarın yola düşməsini ləngitməyə, özbaşına dəmir yoluna düşməyə, qatarın idarəetmə kabinəsinə, xidməti-texniki otaqlara, ventilyasiya şaxtası köşklərinə, tunellərə və metropolitenin işçiləri üçün nəzərdə tutulan çəpərlənmiş ərazilərə daxil olmağa, açıq oddan, pirotexniki qurğulardan (fişəng, partlayıcı və sair) istifadə etməyə görə - 50 manat məbləğində cərimə edilir.

**Maddə 318. Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkmə**

Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkməyə görə - 40 manat məbləğində cərimə edilir.

**Maddə 322. Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması**

**322.0.** Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına, yəni:

**322.0.4.** müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkilməsinə görə - 40 manatdan 50 manatadək məbləğdə cərimə edilir.

**Maddə 450. Aksiz markası ilə markalanmalı olan məhsulların (malların) belə marka olmadan satılması, satış məqsədi ilə saxlanması və ya istehsal binasının hüdudlarından kənara çıxarılması, belə məhsulların (malların) nağd qaydada alqı-satqısı**

**450.2.** Tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda alınması - 100 manat məbləğində cərimə edilir.

***Qeyd: Bu Məcəllənin 450.2-ci maddəsində isə "az miqdarda" dedikdə 50 manatadək olan məbləğ başa düşülür.***

**Maddə 455. Etil (yeyinti) spirti, alkoqollu içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulması**

**455.1.** Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının satışı qaydalarının pozulmasına görə - 50 manatdan 80 manatadək cərimə edilir.

**455.2.** Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə - 100 manat məbləğində cərimə edilir.

# İstinad edilmiş mənbələr:

1. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)

2. Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası

3. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu

4. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

6. "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 127 №-li, 3 aprel 2018-ci il tarixli Qərarı

7. "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 218 №-li, 16 may 2018-ci il tarixli Qərarı

8. "Tütün məmulatları tullantılarının utilizasiyası Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 263 №-li, 13 iyun 2018-ci il tarixli Qərarı